# Ulu öndər və müstəqil dövlətçilik konsepsiyası



***Tarixi gerçəkliklər sübut edir ki, dövlətin, xalqın taleyi, ilk növbədə, liderin şəxsiyyətindən və idarəetmə qabiliyyətindən asılıdır. Belə liderlər dövlətçilik ideyalarının praktik surətdə gerçəkləşməsində mühüm rol oynayır, milli tərəqqi üçün dayanıqlı əsasların müəllifinə çevrilirlər. Hər bir xalqın özünütəsdiqinin parlaq ifadəsinə çevrilmiş müstəqil dövlətçilik konsepsiyası da məhz fenomenal liderlərin adı ilə bağlı olur.***

Xalqımız, o cümlədən, dünya azərbaycanlıları üçün belə alternativsiz lider məhz ulu öndər Heydər Əliyevdir! XX əsrdə xalqımızın yetirdiyi ən böyük şəxsiyyət olan, ümumiyyətlə isə dünyanın ən böyük azərbaycanlısı sayılan Heydər Əliyevin müdrikliklə müəyyənləşdirdiyi yol Azərbaycanın alternativsiz inkişaf strategiyasına çevrilib. Bu gün ümmmulli lider cismən aramızda olmasa da, onun siyasi kursu uğurla davam etdirilir. Bu strategiya möhtərəm Prezidentimiz İlham Əliyevin gərgin fəaliyyəti, siyasi iradəsi nəticəsində Azərbaycanı dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşub.

Özünün tarixi xidmətləri sayəsində ümummilli lider səviyyəsinə yüksəlmiş bu fenomen şəxsiyyət, ilk növbədə, Azərbaycan dövlətçiliyinin ideoloji əsaslarını mükəmməl konsepsiya halına gətirib. Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini təmin etməklə yanaşı, xalqın və dövlətin ideoloji xəttini, söykənəcəyi təməl prinsiplərini irs olaraq müəyyənləşdirmişdir.

1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün respublikamızın Moskvadakı Daimi Nümayəndəliyində bəyanatla çıxış edən ulu öndər Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib. Sonralar, Heydər Əliyevin Kremldən uzaqlaşmasından istifadə edən ermənilər və ermənipərəst qüvvələr Dağlıq Qarabağda münaqişəli vəziyyəti daha da kəskinləşdirdilər. Heydər Əliyev bu çirkin siyasətlə bağlı keçmiş SSRİ rəhbərliyinin ikiüzlü mövqeyinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib. 1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşayıb və həmin illərdə də Azərbaycan Ali Sovetinə deputat seçilib. O, 1991–1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub.

1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Ölkəmizin o zamankı rəhbəriiyində təmsil olunan şəxslər Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi. İyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

Müdrik şəxsiyyət həmin dövrdə məhz azərbaycançılığı milli ideya kimi irəli sürdü. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi və Azərbaycanın davamlı inkişaf yoluna çıxarılmasını həmin ideyanın başlıca konturları kimi müəyyənləşdirdi. Bu ideya həm də respublikanın demokratik, hüquqi, dünyəvi dövlətə çevrilməsi, ərazi bütövlüyü və suverenliyinin bərpası, beynəlxalq miqyasda mənafelərinin etibarlı şəkildə qorunması kimi ümdə məqsədləri ön plana çəkdi. Heydər Əliyevin yüksək dövlətçilik təfəkkürü sayəsində həyata vəsiqə alan azərbaycançılıq ideyası hər bir vətəndaşın maraqlarını özündə ehtiva etməklə, xalqın daimi birliyi və həmrəyliyində vacib amil kimi özünü doğrultdu.

Ümummilli liderin ölkəyə rəhbərlik etdiyi illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç bir rəhbər etməyib. Meydana silahsız gələn bu dahi insan qüdrətli ordu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz nailiyyətlərə imza atdı. Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri, özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi.

2003-cü ilin prezident seçkiləri ərəfəsində ümummilli lider Heydər Əliyevin Azərbaycan vətəndaşlarına ünvanladığı 1 oktyabr tarixli müraciət təkcə ulu öndərin deyil, bütövlükdə, xalqımızın cənab İlham Əliyevə olan böyük ümidlərinin təcəssümü kimi ortaya çıxmışdır. Ümummilli lider bu tarixi müraciəti ilə xalqa onun əsasını qoyduğu milli dövlətçiliyi, siyasi kursu davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "...Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyasının sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ümumən, o dövrdəki proseslər – ölkədə iqtisadi, siyasi, hüquqi islahatların davamlılığı, ardıcıllığı Heydər Əliyev siyasi kursunun dönmədən davam etdirilməsini, hakimiyyət estafetinin bu xətti dəstəkləyən və uğurla başa çatdırmağa qadir olan yeni liderə – cənab İlham Əliyevə ötürülməsini tarixi zərurət kimi diktə etmişdir. Respublikanın ictimai-siyasi, iqtisadi və mənəvi həyatında yeni intibah mərhələsinin əsasını qoymuş 2003-cü ilin 15 oktyabr seçkiləri, eyni zamanda, xalqın strateji seçiminin alternativsizliyini və dəyişməzliyini sübuta yetirmiş, ölkə vətəndaşlarının mütləq əksəriyyəti hakimiyyət sükanında məhz sınanmış komanda və lideri görmək istəmişdir. İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsi də ölkədəki möhkəm ictimai-siyasi sabitliklə, dinamik iqtisadi inkişafla, demokratikləşmə xəttinin dönməzliyi ilə şərtlənmişdir.

Son 18 ildə həyata keçirilən daxili və xarici siyasət sayəsində qürurla deyə bilərik ki, bu gün Azərbaycan ən yüksək zirvələri fəth etməklə, ulu öndər Heydər Əliyevin görmək istədiyi qalib Azərbaycandır. 2003-cü ildə xalqın 76,84 faiz səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi fikirlər müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının respublikamıza qazandırdığı uğurların aydın mənzərəsini yaradır: "Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanıb. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azəçrbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir."

Bu il – müstəqilliyimizin 30 illiyini keçirdiyimiz bir dövrdə suverenliyin ilk illərində üzləşdiyimiz və xatırlamaq belə istəmədiyimiz hərc-mərclik dövrü artıq acı tarixə çevrilib. Lakin düşünürəm ki, müəyyən həqiqətləri unutmağa mənəvi haqqımız yoxdur. Çünki keçmişi unutsaq, bu günə qiymət verib gələcəyə doğru inamla addımlaya bilmərik. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyun ayınadək ölkədə cərəyan edən xaos və anarxiya, özbaşınalıq mühitinin ağrı acısını hər bir azərbaycanlı öz taleyində qabarıq hiss edirdi. O dövrdə, bütövlükdə, yeni müstəqil dövlətin müqəddəratı ciddi sual altında idi. Azərbaycan Xalq Cümhuriyyəti əsrin əvvəllərində cəmi 23 ay yaşamışdı. Əsrin sonlarında da ölkəmiz dövlət müstəqilliyini, bütövlükdə dövlətçiliyini itirmək, parçalanmaq kimi siyasi səhnədən silinmək təhlükəsi ilə üzləşmişdi.

90-cı illərin əvvəllərindən fərqli olaraq, bu gün heç kim respublikamızın müstəqilliyi ilə bağlı hansısa bədgüman fikirlərə düşmür, sovet dövrünün "nostalgiyası" ilə yaşamır. Çünki Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi kurs etibarlı əllərdədir.

Güclü iqtisadiyyat, güclü sosial siyasət, ölkəmizin hərtərəfli inkişafı, yeni iş yerlərinin açılması, yoxsulluğun azaldılması və yeni sənaye müəssisələrinin yaradılması artıq reallıqdır. Heydər Əliyev siyasətinin əsas istiqamətləri məhz bunlar idi. Azərbaycanın seçdiyi yol və əldə etdiyi nailiyyətlər deməyə əsas verir ki, bu yol düzgün yoldur. Bu, Heydər Əliyev yolu, Heydər Əliyev siyasətidir.

Bütün həyatını, ömrünün ən mənalı illərini xalqına qurban verən ulu öndərin ideyaları reallaşdıqca ölkəmizin inkişafı daha da sürətlənir, uğurların, nailiyyətlərin, irəliləyişlərin sayı artır.

Heydər Əliyevin yolunu davam etdirmək şərəfli olduğu qədər də çətin və məsuliyyətlidir. Bu şərəfə nail olan Prezident İlham Əliyev üzərinə götürdüyü məsuliyyətin, çətin vəzifələrin öhdəsindən bu gün də layiqincə gəlir.

Otuz il işğal altında qalan torpaqlarımızın azad edilməsi, ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün ordumuzun gücü ilə cəmi 44 gün ərzində bərpa olunması, məhz Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. Bu siyasət bizi böyük qələbəyə, XXI əsrin Zəfər paradına çatdırdı. Bu, böyük tarixin başlanğıcı 1993-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən qoyuldu, qalibiyyət tarixi isə 2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevlə yekunlaşdı. Artıq xalqımız Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni bir tarix, Qarabağa, Şərqi Zəngəzura böyük qayıdış tarixini yazır. Bu gün işğaldan azad edilmiş torpaqlarımızda bütün dünyanı heyrətləndirən böyük quruculuq və bərpa işləri inanılmaz sürətlə davam etdirilir. Möhtərəm Prezidentimizin də qeyd etdiyi kimi, bütün bu işləri biz öz gücümüzə və öz vəsaitimiz hesabına aparırıq. Bu, müasir, müstəqil Azərbaycanın güclü və dayanıqlı iqtisadi gücə malik bir dövlət olduğunu sübut edir.

Xalqa xidməti öz siyasətinin aparıcı istiqaməti kimi bəyan edən və bu yolda misilsiz uğurlar qazanan Prezident İlham Əliyev xarici siyasət kursunda da milli maraqlarımızı daim ön planda saxlayır. Azərbaycanın xarici siyasət konsepsiyası ölkəmizin dünyaya inteqrasiyasına və qüdrətli dövlətə çevrilməsinə xidmət edir.

Dahi Heydər Əliyevin siyasi kursunu yaradıcılıqla, müasir tələblərə uyğun şəkildə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün Azərbaycan intibah dövrünü yaşayır. Ölkəmizdə mövcud olan daxili sabitlik, əmin-amanlıq sürətli iqtisadi təkamülün əsasında dayanan mühüm amillərdəndir. Bu tərəqqi ümummilli lider Heydər Əliyev ideyalarının təntənəsi, möhkəm bünövrə üzərində davamlı inkişaf edən müstəqil dövlətimizin real mənzərəsidir.

Ölkəmizin müdrik rəhbəri, möhtərəm Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikanın hər yerində sürətlə aparılan genişmiqyaslı quruculuq işləri bütün dünyaya nümayiş etdirir ki, "inkişafın Azərbaycan modeli" ifadəsi təsadüfi xarakter daşımır. Bu gün ümummilli lider Heydər Əliyev irsinin öyrənilməsi və təbliği hər bir Azərbaycan vətəndaşının ümdə vəzifələrindəndir.

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı,***
***BDU-nun kafedra müdiri,***
***professor***